





# I BEYNƏLXALQ PRAKTİK KONFRANS

*"Rusiyada daxili nəzarət və audit: Konsepsiya və praktika"*

23-24 Oktyabr 2013-cü il tarixində Moskvada "Prezident Hotel"-də "Rusiyada Daxili nəzarət və audit:Konsepsiya və praktika" mövzusunda I Beynəlxalq konfrans keçirildi və APFM nümayəndə heyəti bu konfransda iştirak etdi.
Konfrans Dövlət Atom Enerjisi Korporasiyası "Rosatom" dəstəyi ilə, Böyük Britaniyanın Sertifikatlaşmış Maliyyə Menecerləri İnstitutunun (ICFM) Rusiya nümayəndəliyi tərəfindən təşkil olunmuşdu.
Tədbirin operatoru - Rusiya Auditorlar Palatasının tədris mərkəzi idi.
Konfransı giriş sözu ilə ICFM –in Baş İcraçı Direktoru Qarri Karter və , ICFM Rusiya nümayəndəliyinin rəhbəri Anastasiya Rusakova açdı, konfrans iştirakçılarını, həmçinin Rusiya Federal Məclisinin Dövlət Dumasının İnnovativ İnkişaf və İqtisadi Siyasət Komitəsinin, "Roskosmos" Federal Kosmik Agentliyinin nümayəndələrini salamladı.





Konfransın ilk günü Rusiyada və xaricdə daxili nəzarət və auditin inkişaf perspektivlərinə həsr olunmuş plenar sessiyaları ilə başladı. Plenar iclasın məruzəçiləri arasında Rusiya Federasiyası Federal Məclisinin, Dövlət Dumasının , Maliyyə Nazirliyinin Maliyyə və Büdcəyə Nəzarət,  Federal Xəzinədarlığı , Milli Antikorrupsiya Komitəsi, Antiinhisar Xidməti və Rusiya Federasiyasının digər dövlət orqanlarının həmçinin  " Rosatom " ASC ",  Rusiya Dəmir Yolları " ASC " Rostelecom " ASC,  " Lukoil "və s iri şirkətlərin nümayəndələri var idi.

Rusiyada daxili nəzarət və audit tarixində ilk dəfə təşkil olunmuş bu konfrans iştirakçılar tərəfindən böyük maraqla qarşılandı, daxili nəzarət və





audit sistemləri mövzusunda ictimai debatlar geniş vüsət aldı. Böyük Britaniya, Ukrayna, Qazaxıstan, Azərbaycan və digər ölkələrdən gəlmiş nümayəndələr öz təcrübələrini bölüşdülər. Konfrans ICFM tərəfindən təşkil olunmuş təntənəli Qala Şam yeməyi və mükafatların təqdimatı ilə başa çatdı.

Qala Şam yeməyində ICFM-in patronu  Əlahəzrət Şahzadə Maykl Kent bütün iştirakçıları salamladı və mükafat alanları təbrik etdi.

İştirakçılar bu  konfransın  daxili auditorlar və dövlət orqanları nəzarətçiləri üçün Rusiya və digər xarici ölkələrin iri şirkətləri arasında təcrübə və informasiya mübadiləsinin aparılması baxımından çox vacib olduğunu qeyd etdi. Daxili nəzarət və audit sistemlərinin inkişafında təcrübə mübadiləsinin əhəmiyyətini nəzərə alaraq, hər il analoji konfransların keçirilməsi qərara alındı.